*"Təsdiq edirəm"*
*Naxçıvan Dövlət Universitetinin*
*Rektoru /__________/ E.S.İsayev*
*"30" aprel 2021-ci il*

**Naxçıvan Dövlət Universiteti**

**Bakalavriat və Magistratura təhsil səviyyələrində Yekun Dövlət Attestasiyalarının qiymətləndirilməsi**

**Qaydaları**

1. "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 iyun 2017-ci il tarixli 257 №-li qərarı ilə bu qərara edilmiş dəyişikliklərin, Azərbaycan Respublikası Təhsil nazirinin 13.03.1997-ci il tarixli və 152 nömrəli əmri ilə təsdiq olunmuş "Ali məktəbin bakalavr pilləsində buraxılış işlərinin hazırlanması qaydaları"nın və Azərbaycan Respublikası Təhsil nazirinin 20.04.1998-ci il tarixli 202 saylı əmri ilə təsdiq olunmuş "Magistr dissertasiyalarının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə"nin şərtləri gözlənilməklə Yekun Dövlət Attestasiyalarının qiymətləndirilməsi aşağıdakı qaydada aparılsın.

2. Təhsil müddətində ixtisasın (ixtisaslaşmanın) təhsil proqramında nəzərdə tutulmuş kreditləri tam ödəyən bakalavrlar fakültə Elmi Şurasının qərarı ilə, magistrantlar isə Magistratura Mərkəzinin Direktorunun təqdimatı ilə Yekun Dövlət Attestasiyasına buraxılmış hesab edilsinlər.

3. Bakalavriat və magistratura təhsil səviyyərlərində buraxılış işləri və magistr dissertasiyalarının müdafiəsi 100 ballıq sistemdə aşağıdakı qaydada qiymətləndirilsin:

- Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və tərtibinə görə - 50 bal verilsin (buraxılış işi və magistr dissertasiyası Azərbaycan Respublikası Təhsil nazirinin 13.03.1997-ci il tarixli və 152 nömrəli əmri ilə təsdiq olunmuş "Ali məktəbin bakalavr pilləsində buraxılış işlərinin hazırlanması qaydaları"nın və Azərbaycan Respublikası Təhsil nazirinin 20.04.1998-ci il tarixli 202 saylı əmri ilə təsdiq olunmuş "Magistr dissertasiyalarının hazırlanması, təqdim olunması və

müdafiəsi qaydaları haqqında əsasnamə"nin şərtləri gözlənilməklə tərtib edilibsə)

- Buraxılış işi və magistr dissertasiyasının müdafiəsinə isə maksimum 50 bal verilsin (minimum balın 17 olması şərtilə)

4. Bakalavriat təhsil səviyyəsində Dövlət imtahanları 100 ballıq sistemlə aşağıdakı qaydada qiymətləndirilsin:

- Naxçıvan Dövlət Universitetində ixtisas üzrə buraxılış yekun dövlət imtahanları bir qayda olaraq yazılı formada keçirilir. Yazılı imtahanda tələbə çəkdiyi bilet üzrə ixtisas (pedaqoji profilli ixtisaslarda 1 sual ixtisasın tədrisi metodikası fənni olmaqla) üzrə 5 suala 2 akademik saat ərzində yazılı cavab verir. Yazılı cavablar kodlaşır və ixtisas üzrə dövlət attestasiya komissiyasının üzvləri tərəfindən hər sual 10 ballıq qiymətləndirmə əsasında qiymətlədirilir.

- Xüsusi qabiliyyət tələb edilən ixtisaslarda Yekun Attestasiyanın keçirilməsi və qiymətləndirilməsi aşağıdakı qaydalar üzrə aparılsın:

- İnstrumental ifaçılıq (Fortepiano, Simli alətlər, Nəfəs alətləri), Xalq çalğı alətləri ifaçılığı, Solo oxuma, Dirijorluq ixtisaslarında təhsil alan tələbələrə ixtisası üzrə müxtəlif janrlarda 5 əsər təqdim edilir, bir əsər maksimum 10 balla qiymətləndirilir.

- Aktyor sənəti ixtisasında tələbələr tamaşada rollar oynayır, 5 meyar üzrə maksimum 10 balla qiymətləndirilir.

- Rəngkarlıq ixtisasında tələbələr bir yaradıcılıq əsəri təqdim edir, 5 meyar üzrə maksimum 10 balla qiymətləndirilir.

- Tibb ixtisaslarında tədris planı üzrə bir neçə fənn üzrə nəzərdə tutulmuş dövlət imtahanları ümumiləşdirilərək 5 suallı bilet əsasında bir Dövlət imtahanı kimi keçirilsin və hər sual maksimum 10 balla qiymətləndirilsin.

- Bütün hallarda dövlət imtahanlarının yekun qiymətləndirilməsi toplanılan balın ikiyə vurulması ilə aparılsın (minimum toplanılan bal 26 olmaq şərtilə).

5. Bakalavriat səviyyəsində buraxılış işi, dövlət imtahanları fəaliyyətdə olan Buraxılış Yekun Dövlət Attestasiya Komissiyaları və magistr dissertasilarının müdafiəsi isə fəaliyyətdə olan İxtisaslaşdırılmış Elmi Şuralar tərəfindən qiymətləndirilsin və müvafiq protokollarda öz əksini tapsın.

6. Bakalavriat və Magistratura təhsil səviyyərlərində komissiya və Şuralar tərəfindən aparılan yekun qiymətləndirilmələr fakültə Elmi Şuralarında təsdiq edilsin.